# Peşəkar kəşfiyyatçı



**Cəsarət, qorxmazlıq, səbir, dözümlülük, yüksək nizam-intizam, çətinliklərə sinə gərmək, zəhmətsevərlik qanına, canına hopmuşdu onun. Ömür yoluna nəzər saldıqda, saf, mübariz, milli maraqların müdafiəsinə köklənən dünyasına boylandıqda, onu yenidən, təkrar-təkrar kəşf edir və düşünürsən ki, o, elə hərbçi olmaq üçün gəlmişdi dünyaya. Və buna da əmin olursan ki, Azərbaycan xalqı zamanın sınağından, tarixin imtahanından məhz belə oğullarının fədakarlığı sayəsində alnıaçıq, üzüağ çıxmışdır. İllər keçib zaman dəyişsə də, hər gələn yeni nəsil onların hərbi biliklərindən bəhrələnəcək, döyüş yolları ilə fəxr edəcəkdir.**

Azərbaycanın Əməkdar hüquqşünası, general-mayor Bahadur Hüseynovun sıravi əsgərdən generallığa uzanan ömür yolu çətin, əziyyətli və bir o qədər də şərəfli olmuşdur. O, hələ gənc yaşlarından hərbi biliklərə dərindən yiyələnmiş, vətəninə, xalqına və dövlətinə sədaqətlə, fədakarlıqla xidmət etmək üçün bu çətin və sınaq dolu yolu uğurla keçmiş, general ali hərbi rütbəsinədək yüksələ bilmişdir.

Bahadur Hüseynov 1921-ci il dekabr ayının 15-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. 3 yaşı olanda çətin həyat şəraiti ailəsini Naxçıvandan Gəncəyə köçməyə vadar edir. 1934-cü ildə Gəncədə yeddiillik məktəbi başa vuran Bahadur təhsilini davam etdirmək üçün 1939-cu ilin may ayında böyük qardaşı Əhmədin çağırışı ilə Xarkova gedir və orada F.E.Dzerjinski adına sərhədçilər məktəbinə daxil olur. Məhz bu təhsil onun taleyini həmişəlik hərb peşəsinə, hüquq-mühafizə orqanlarına ömürlük bağlayır...

Böyük Vətən müharibəsi başlananda Bahadur kiçik leytenant rütbəsində taqım komandiri kimi cəbhəyə yollanır. Onun ilk döyüş yolu 1941-ci ildə Smolensk istiqamətində vuruşan 246-cı diviziyanın 908-ci alayından keçir. Döyüşlərdə üç dəfə ağır yaralanan kiçik leytenant bir müddət Qorki şəhərində müalicə aldıqdan sonra yenidən cəbhəyə göndərilməsi üçün Gürcüstanda yerləşən ehtiyat briqadasına yola salınır. Bahadur Hüseynovun sərhəd məktəbini bitirdiyini öyrənən briqada komandiri SSRİ-də peşəkar sərhədçilərə, ali təhsilli hərbi mütəxəssislərə ciddi ehtiyac olduğundan onu Gürcüstanın Sərhəd Qoşunlarında xidmətə göndərir. Gənc zabit 1942-ci ildən 1948-ci ilə kimi Gürcüstanda tərcüməçi, zabit, böyük zabit vəzifələrində qulluq edir. 1948-1963-cü illərdə Azərbaycanın Sərhəd Qoşunlarının Azərbaycan dairəsinin 43-cü sərhəd dəstəsində əvvəlcə bölmə rəisi, sonra isə kəşfiyyat bölmə rəisi vəzifələrində xidmət edir.

O, 1961-ci ildə xidməti vəzifəsindən ayrılmadan Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olur və 1967-ci ildə ali təhsilini başa vuraraq hüquqşünas ixtisasına yiyələnir. Polkovnik-leytenant rütbəsinə qədər yüksələn Bahadur Hüseynovun xidməti fəaliyyətini böyük məsuliyyət və bacarıqla yerinə yetirməsi hərbi komandanlığın diqqətindən yayınmır və bir müddətdən sonra xidmət etdiyi hərbi hissənin rəis müavini təyin olunur. Çox keçmir ki, Bahadur Hüseynovun fəaliyyəti milli hərbi kadrlara böyük diqqət və qayğı göstərən ulu öndər Heydər Əliyevin də diqqətini cəlb edir. Məhz Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Bahadur Hüseynov Dövlət Təhlükəsizlik Komitəsinə dəvət edilir. Qısa müddətdən sonra o, Dövlət Təhlükəsizlik Komitəsində bölmə rəisi, 1969-cu ildə isə Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizlik Komitəsinə sədr təyin edilir və 1976-cı ilədək bu vəzifədə çalışır.

Vətənə şərəflə, sədaqətlə xidmət etməyi özünün müqəddəs borcu hesab edən Bahadur Hüseynov Heydər Əliyevin təklifi və Azərbaycan KP MK-nın qərarı ilə 1976-cı ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə sədr müavini təyin edilir. 1978-ci ildə isə polkovnik Bahadur Hüseynov general-mayor rütbəsinə layiq görülür.

Hər zaman olduğu kimi, o illərdə də ermənilər xalqımıza olan xain niyyətlərini müxtəlif yollarla həyata keçirirdilər. Dövlət əhəmiyyətli bir çox vacib siyasi və hətta təxribat xarakterli məsələlər Heydər Əliyevin rəhbərliyi və Bahadur Hüseynovun iştirakı ilə vaxtında həll olunur və qarşısı alınırdı.

1985-ci il idi. 106 nömrəli marşrutla hərəkət edən sərnişin avtobusunda partlayış hadisəsi baş vermişdi. Hadisə ilə bağlı DTK-nın Mərkəzi aparatında savadlı və səriştəli əməkdaşlardan ibarət Operativ Qərargah təşkil olundu. Qərargahın tərkibinə DTK-nın rayon aparatlarının rəhbərləri də daxil edilmiş, DTK-nın sədr müavini Bahadur Hüseynov isə Operativ Qərargahın rəisi təyin olunmuşdu. Bu istiqamətdə ciddi tədbirlər görülürdü. Partlayıcı qurğu-kapsula artıq qərargaha çatdırılmışdı. Hər bir əməkdaş bu kapsulanı incələyir, onun necə hazırlanması barədə fikirlərini bölüşürdülər. Fikirlər müxtəlif idi. Bəziləri kapsulun zavod istehsalı olduğunu, digərləri isə kustar üsulla təcrübəsiz xarrat tərəfindən hazırlandığını söyləyirdilər. Bunun dəqiqləşdirilməsi üçün qərargaha iri zavodlardan təcrübəli mütəxəssislər də dəvət olunmuşdu. Mütəxəssislər tərəfindən kapsulaya baxış keçirildikdən sonra onun naşı xarrat tərəfindən kustar üsulla hazırlandığı müəyyən olundu. Bahadur Hüseynov dərhal rayon aparatlarının rəhbərlərinə bütün əməliyyat heyəti cəlb olunmaqla ərazilərində fəaliyyət göstərən iri sex və kiçik emalatxanalarda axtarışlar aparılması üçün əməliyyat tapşırığı verdi. İş çox dəqiqliklə təşkil olunmuşdu. Axtarışın ikinci günü Binəqədi rayon aparatının əməkdaşı məlumat əldə etməyə müvəffəq oldu. Belə ki, zavoda təhkim olunmuş əməkdaş Aram Vartanovu işdən sonra dəzgahda işləyən görür. Vartanov onu gördükdə öz bədəni ilə dəzgahda düzəltdiyi detalı gizlədir. Lakin kəşfiyyatçı dəzgahda fırlanan iri qara detalı görə bilir. Əməliyyatçılar kapsula baxış keçirərkən kəşfiyyatçı əminliklə bunun Vartanovun dəzgahda hazırladığı həmin detal olduğunu bildirdi. Məlumat dərhal Operativ Qərargahın rəisi Bahadur Hüseynova məruzə olundu və o, Vartanovun saxlanılması əmrini verdi. Artıq Vartanovun terrorçu olması heç kəsdə şübhə yaratmırdı. Operativ Qərargah tərəfindən hazırlanmış plan əsasında qısa zamanda terrorçunun izinə düşmək mümkün oldu və əməliyyat müvəffəqiyyətlə nəticələndi. İstintaq Vartanovun bir müddət öncə, yayda məzuniyyətini Yerevanda qohumlarının yanında keçirdiyini müəyyən etdi. Orada özünü "Daşnakt sütyun" təşkilatının rəhbəri kimi təqdim edən şəxs Vartanovu əməkdaşlığa cəlb etmiş və Vartanova verilmiş birinci tapşırıq Bakıda ictimai nəqliyyatda partlayışın törədilməsi olmuşdu. Bunun icrası üçün Yerevanda Vartanova kapsulun hazırlanması üsulu da öyrədilmişdir.

Vartanovun saxlanması Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin əməliyyat heyətinin böyük nailiyyəti idi. Bahadur Hüseynov tərəfindən əməliyyat tədbirlərinin keçirilməsi üçün qərarlar düzgün və vaxtında qəbul olunmuş, bununla əlaqədar dəqiq və aydın tapşırıqlar verilmişdir. Əməliyyatın müvəffəqiyyətlə yerinə yetirilməsinə görə B.Hüseynov SSRİ DTK tərəfindən "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Heydər Əliyev milli kadrların yetişdirilməsinə, onların mühüm vəzifələrə, strateji sahələrə irəli çəkilməsinə böyük önəm verirdi. Ulu Öndərin bu müdrik strateji xəttiniözü üçün nümunə seçmiş Bahadur Hüseynov da erməni məkrinə, ermənilərin Azərbaycan xalqına yönəlmiş terror və təxribatlarına qarşı fədakarcasına mübarizə aparırdı. Ötən əsrin 80-ci illərinin əvvəllərində xalqımıza qarşı müxtəlif təxribatlar həyata keçirən ermənilər yanğın və partlayışlar törədir, terror aktları, suiqəsdlər təşkil edirdilər. Və bir çox hallarda bu cinayətlərə qəza və ya təsadüfən baş verən bədbəxt hadisə görüntüsü verməyə çalışırdılar. Erməni xislətindəki bu bədxahlığa, onların Azərbaycan xalqına bəslədikləri kin-küdurətə yaxşı bələd olan Bahadur Hüseynov bu təxribatların qarşısını almaq üçün böyük səy göstərirdi. Lakin Dövlət Təhlükəsizlik Komitəsinin bütün tədbirlərinə baxmayaraq, sovet rəhbərliyinin himayəsinə arxalanan ermənilərin xalqımıza qarşı təxribatları səngimək bilmirdi. Sovet rəhbərliyinin ermənipərəst mövqeyinə, Azərbaycan xalqına ədalətsiz münasibətinə baxmayaraq, Bahadur Hüseynov Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini kimi hər vəchlə ermənilərin bədxah niyyətlərinin qarşısını almağa çalışırdı.

1983-cü ildə ermənilər Bakıda Opera və Balet Teatrının binasında yanğın törətdilər. Həmin vaxt Moskvada dəfn mərasimində iştirak edən Bahadur Hüseynov Heydər Əliyevin tapşırığı ilə təcili Bakıya qayıdaraq baş verən hadisənin ermənilər tərəfindən törədildiyini sübuta yetirdi.

Bahadur Hüseynov yaxşı başa düşürdü ki, erməni separatizminə qarşı effektiv mübarizənin əsas şərtlərindən biri hüquq-mühafizə orqanlarında milli kadrların çoxluğuna nail olmaq, yeni milli kadrları bu qurumlara cəlb etməklə erməni təxribatlarına qarşı vətənpərvərlərdən ibarət komanda formalaşdırmaqdır. Bu baxımdan o, Təhlükəsizlik Komitəsinə bacarıqlı, vətənpərvər şəxslərin cəlb edilməsinə xüsusi diqqət yetirir, azərbaycanlıların bu qurumdakı mövqeyini möhkəmləndirməyə, onların daha yüksək postlara təyinatına çalışırdı. Təsadüfi deyil ki, məhz Bahadur Hüseynovun səyi nəticəsində 1986-cı ilə qədər xeyli sayda azərbaycanlı Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində işə qəbul edilmiş, onların bir çoxu qısa zamanda yüksək vəzifələrə təyinat almışdılar.

Bahadur Hüseynovun milli kadrlara olan qayğıkeş və həssas münasibəti ulu öndər Heydər Əliyev tərəfindən də təqdir edilir və qiymətləndirilirdi. Heydər Əliyev Bahadur Hüseynovun milli kadrlara yanaşmasını dəstəkləyir, onu erməni və sovet rəhbərliyindəki ermənipərəst məmurların hücumlarından müdafiə edirdi. Məhz Heydər Əliyevin və Bahadur Hüseynovun səyləri nəticəsində Dövlət Təhlükəsizlik Komitəsinə cəlb edilən azərbaycanlılar sonrakı dönəmdə - müstəqillik illərində dövlət təhlükəsizliyimizin təmin edilməsində fəal iştirak etmiş, erməni terrorizminə qarşı mübarizədə böyük uğurlara nail olmuşdur.

Keçdiyi çətin yollarda, çox ağır sınaqlarda, hər zaman bir azərbaycanlı general kimi irəli çəkilməsində Heydər Əliyevin qayğısını öz üzərində hiss edən Bahadur Hüseynov sonralar öz xatirələrində deyirdi: "O vaxt Heydər Əliyev demişdi ki, biz eşitdiyimizə görə, bizim sərhəd qoşunlarında ən birinci yerdə gedən kəşfiyyat hissəsinin rəhbəri Hüseynov Bahadurdur. O vaxt məni vaxtilə Heydər Əliyevin rəhbərlik etdiyi 2-ci şöbəyə keçirdilər".

1986-cı ildə təhlükəsizlik orqanlarından ehtiyata buraxılan Bahadur Hüseynov ölkənin ictimai-siyasi həyatından kənarda qalmır, Azərbaycan naminə bütün bilik və bacarığını sərf edirdi. O, dəfələrlə Göytəpə Qəsəbə Sovetinə, Cəlilabad Rayon Zəhmətkeş Deputatları Sovetinə, Naxçıvan Muxtar Respublikası Ali Sovetinə deputat seçilir, həmçinin, Azərbaycan KP-nin qurultaylarının nümayəndəsi, Bakı Şəhər Partiya Komitəsinin üzvü kimi fəaliyyət göstərirdi.

İki dəfə Qırmızı Əmək Bayrağı ordeni, I və II dərəcəli Vətən müharibəsi ordeni, həmçinin 30-a yaxın medal, Rusiya DTK-nın 3 fərqlənmə döş nişanı və bu kimi onlarla təltiflər general Bahadur Hüseynovun gərgin və şərəfli xidmətlərinə verilmiş dövlət mükafatlarıdır. 1981-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Baş Katibi Leonid Brejnev Bakıya gələrkən şəxsən Bahadur Hüseynova qol saatı bağışlamışdı. Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, keçmiş SSRİ-nin fəxri kəşfiyyatçısı Bahadur Hüseynov öz peşəkarlığı ilə Azərbaycandan kənarda da tanınmış, bir sıra xarici dövlətlərin orden və medalları ilə də təltif edilmişdir.

Bahadur Hüseynov MDB ölkələri veteranlar təşkilatının Əlaqələndirmə Şurası Rəyasət Heyətinin üzvü, eyni zamanda Ümumdünya Veteranlar Federasiyası Rəyasət Heyətinin ilk azərbaycanlı üzvü idi.

1987-ci ildə general Mustafa Nəsirovla birlikdə Respublika, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlarının Birliyinin yaradılmasına nail olan Bahadur Hüseynov təşkilatın məsul katibi, sədrin müavini vəzifələrinə seçilmiş, 1992-ci ildən 2001-ci ilə kimi isə həmin təşkilata sədrlik etmişdir. O, veteranların sosial təminatının güclənməsi üçün əlindən gələni əsirgəməmiş, veteranların həyat səviyyəsini yüksəltməyə çalışmışdır. Xarici ölkələrin veteran təşkilatları ilə əlaqələrin qurulmasında, Azərbaycan veteranlarının dünya veteranlar hərəkatına qoşulmasında da Bahadur Hüseynovun böyük əməyi olmuşdur. Onun təşəbbüsü ilə Azərbaycan Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Ümumdünya Veteranlar Federasiyası tərkibinə daxil olmuşdur.

Bahadur Hüseynov peşəkar hərbçi, təcrübəli hüquqşünas, əsl kəşfiyyatçı, hər zaman öz işinə böyük məsuliyyət və vicdanla yanaşan təcrübəli mütəxəssis idi. Lakin onu insanlara sevdirən sadəcə peşəkarlığı deyil, o, öz sadəliyi, səmimiliyi, insanlara doğma, qayğıkeş münasibəti ilə hər kəsin sevimlisinə, gənclərin qəhrəmanına çevrilmişdi. Çünki Bahadur Hüseynov bütün varlığı ilə sevdiyi Azərbaycanı gənclərə sevdirməyi də, torpağı fədakarlıqla qorumağı öyrətməyi də bacarırdı.

**Şamil SÜLEYMANOV,**
**"Alyans" Azərbaycan Xüsusi Xidmət Orqanları Veteranlarının İctimai Birliyinin fəxri sədri, Təhlükəsizlik Orqanlarının fəxri əməkdaşı.**